**AZƏRBAYCAN RESPUBLİKASI**
**KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

---

**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**

===

Əlyazması hüququnda

**NƏSİBOVA XALSA İBRAHİM QIZI**

# AQRAR SAHƏDƏ İSTEHSALIN İNKİŞAFININ İQTİSADİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**5312.01 – «Sahə iqtisadiyyatı»**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**GƏNCƏ – 2013**

Dissertasiya işi Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Tə\şkili İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad üzrə emlər doktoru
**Məhərrəm Cəlal oğlu Hüseynov**

**Rəsmi opponentlər:** iqtisad üzrə elmlər doktoru, professor
**Fizuli Əziz oğlu Məmmədov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Zakir Talıb oğlu Əhmədov**

**Aparıcı təşkilat:** **AMEA-nın İqtisadiyyat İnstitutu**

Müdafiə «29» yanvar 2013-ci il saat $14^{00}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: Az 2000, Gəncə şəhəri, A.İsgəndərov küçəsi, 64. 2-ci mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat «28» dekabr 2013-ci ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş**
**dissertasiya şurasının elmi**
**katibi, i.f.d., dosent:** **V.T.Əmrahov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. Son illərdə respublikamızda həyata keçirilən iqtisadi islahatlar ölkə iqtisadiyyatında yüksək makroiqtisadi nəticələrin əldə olunmasına əlverişli zəmin yaratmışdır. Ölkədə iqtisadi inkişafın sürətləndiyi müasir şəraitdə dövlətin qarşısında duran başlıca vəzifələrdən biri də iqtisadiyyatın digər sahələri ilə yanaşı strateji sahələrdən hesab olunan aqrar sahənin dayanaqlı inkişafını təmin etməkdir. Bu istiqamətdə uğurlu nəticələrin əldə olunması üçün həyata keçirilməsi vacib olan məsələlərdən biri sahənin səmərəli fəaliyyət mexanizminin formalaşdırılmasıdır. Aqrar sahənin məqsədyönlü təşkili ilk növbədə bazarın iqtisadi vasitələrin köməyi ilə tənzimlənməsini nəzərdə tutur. Məhz bu yolla aqrar məhsullarının istehsalçıları ilə istehlakçılar arasında qarşılıqlı iqtisadi əlaqələr mexanizmi bütövlükdə ölkə iqtisadiyyatına uyğun formada qurulmasıdır.

Bazar iqtisadiyyatı şəraitində aqrar sahənin inkişafı və fəaliyyətinin iqtisadi vasitələrlə tənzimlənməsində bir sıra çətinliklər meydana gəlmişdir. Lakin makroiqtisadi sahədə müşahidə edilən meyillər mikroiqtisadiyyatın sağlamlaşdırılmasına optimal səviyyədə təsir edə bilməmişdir. Bank-maliyyə, qiymət, pul-kredit, büdcə, büdcə-gömrük, sığorta və s. iqtisadi vasitələrdən tam istifadə edilməmişdir. Odur ki, təcrübədə hər bir iqtisadi vasitənin ayrılıqda, digərlərinin xüsusiyyətləri nəzərə alınmadan tətbiqi, mənfi nəticələr verir.

Aqrar sahədə nəzərdə tutulmuş sosial-iqtisadi inkişaf sürətinə nail olunmamasının çoxsaylı səbəblərindən biri də iqtisadi vasitələrin istehsala tətbiqində sistemliyin gözlənilməməsi olmuşdur. Belə ki, aqrar sahədə qiymətlərin liberallaşdırılmasında, daxili bazarın qorunması, qiymət tarazlığının gözlənilməsi, kredit növləri üzrə dərəcə və faizlərin müəyyənləşdirilməsində təsərrüfatların maliyyə vəziyyəti kifayət qədər nəzərə alınmamış, həmçinin onların kreditə olan tələbatı, əhalinin alıcılıq qabiliyyəti, əhalinin minimum istehlak xərcləri, büdcə və s. kimi məsələlər üzrə uyğunsuzluqlar mövcud olmuşdur.

Belə halların aradan qaldırılmasında həlledici rol əsasən iqtisadi vasitələrin, təsərrüfat subyektlərinin fəaliyyətinin tənzimlənməsinin üzərinə düşür. Yeni təsərrüfatçılıq şəraitində istehsalın iqtisadi vasitələrlə tənzimlənmə metodlarının tətbiqi, iqtisadi inkişafın təkanverici amili kimi əhəmiyyətini təsdiq edir. Bu baxımdan respublikada aqrar sahənin yeni iqtisadi münasibətlər əsasında formalaşması və inkişafı, bu sahədə müxtəlif mülkiyyət və çoxukladlı təsərrüfat formalarının yaradılması və formalaşdırılmasının daha səmərəli iqtisadi mexanizminin tətbiqinin elmi cəhətdən araşdırılması tədqiqat mövzusu kimi seçilmişdir.

**Problemin öyrənilmə vəziyyəti**. Aqrar sahədə həyata keçirilən iqtisadi islahatların getdikcə dərinləşməsi bazar münasibətləri və buna uyğun olaraq, aqrar bazarın fəaliyyət mexanizminin hazırlanması, dövlətin istifadə etdiyi iqtisadi tənzimləmə vasitələrinin rolunun və təsir dairəsinin artırılmasının elmi cəhətdən əsaslandırılması, respublikanın iqtisadçı alimlərinin diqqət mərkəzində olmuş və olmaqdadır.

Onlardan Z.Ə.Səmədzadə, A.K.Ələsgərov, İ.S.Qarayev, Ə.Ç.Verdiyev, A.İ.Məmmədov, A.T.Əhmədov, S.V.Salahov, İ.V.Əhmədov, İ.H.İbrahimov, A.F.Musayev, M.C.Hüseynov, F.Ə.Məmmədov, F.Mehralıyev, A.F.Abbasov, V.H.Abbasov, R.B.Məmmədov, H.M.Əliyev və başqaları qeyd edilən problemin ayrı-ayrı aspektlərinə öz əsərlərində və elmi məqalələrində xeyli yer vermişlər. Eyni zamanda problemin bir sıra nəzəri və praktiki məsələlərini rus iqtisadçı alimləri E.V.Serova, E.N.Borisenko, V.A.Dobrının, V.K.Lomakin, E.N.Krılatıx, M.Roverts və başqaları geniş və ətraflı tədqiq etmişlər..

Adları çəkilən müəlliflərin tədqiqatlarında bir çox mühüm məsələlərin, o cümlədən yeni təsərrüfatçılıq şəraitində iqtisadi vasitələrin xarakterik xüsusiyyətləri nəzərə alınmaqla onların, aqrar bazarın tənzimlənməsində özünəməxsus yeri, rolu öz əksini tapmışdır. Lakin, problemin həllində mexanizmin kompleks halda qarşılıqlı fəaliyyət mexanizmləri şəklində təsiri hələ öz həllini tapmamışdır.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın məqsədi aqrar sahədə bazar münasibətlərinin formalaşması və inkişaf etməsinin mahiyyəti, xarakterik xüsusiyyətləri, nəzəri-praktiki məsələlərini öyrənmək, strukturunu, sosial-iqtisadi nəticələri və meyillərini aşkara çıxarmaq, qiymətləndirmək, aqrar bazarın mövcud vəziyyətini, inkişaf meyillərini təhlil etmək və aqrar bazarın tənzimlənməsinin iqtisadi mexanizminin təkmilləşdirilməsinə dair elmi cəhətdən əsaslandırılmış təkliflər hazırlamaqdan ibarətdir.

Tədqiqatın məqsədinə uyğun aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- aqrar sahədə bazar münasibətlərinin formalaşdırılmasının nəzəri-metodoloji əsasları, iqtisadi məzmunu, inkişafının zəruruliyi və spesifik xüsusiyyətlərinin öyrənilməsi;
- aqrar sahənin inkişafında iqtisadi mexanizmin rolu və formalaşdırılmasının zəruriliyinin əsaslandırılması;
- aqrar sahənin inkişafında dövlət tənzimlənməsinin rolunun müəyyənləşdirilməsi;
- aqrar bazarın formalaşmasının mövcud vəziyyətinin təhlili, onun inkişafına təsir edən amillərin öyrənilməsi və formalaşma meyillərinin tədqiq edilməsi;



- aqrar sahədə iqtisadi mexanizmin formalaşmasının hazırkı vəziyyətinin təhlil edilməsi;
- aqrar bazarın inkişafının başlıca istiqamətlərinin müəyyənləşdirilməsi;
- aqrar bazarın dövlət tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətlərinin əsaslandırılması;
- aqrar sahədə inteqrasiya əlaqələrinin formalaşması istiqamətlərinin müəyyənləşdirilməsi.

**Tədqiqatın obyekti**. Azərbaycan Respublikasında mülkiyyət formasından asılı olmayaraq fəaliyyət göstərən bütün kənd təsərrüfatı və emal müəssisələri tədqiqat obyektinə daxil edilmişdir.

**Tədqiqatın nəzəri metodoloji əsasları.** Tədqiqatın nəzəri-metodoloji əsaslarını aqrar sahənin inkşafı ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları, Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi Qanunlar, həmçinin Nazirlər Kabineti tərəfindən qəbul edilmiş normativ-hüquqi sənədlər, bu sahədə tədqiqat aparan yerli və xarici iqtisadçı alimlərin elmi əsərləri təşkil edir.

Tədqiqat zamanı müşahidə, müqayisə, iqtisadi-statistik təhlil, dinamika, monoqrafiya üsullarından geniş istifadə edilmişdir.

**Tədqiqatın məlumat mənbələri**. Dissertasiya işində Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin müvafiq statistik məlumatlarından, eləcə də müxtəlif mülkiyyət formasında olub fəaliyyət göstərən müəssisə və təşkilatların, müvafiq elmi-tədqiqat institutlarının, o cümlədən Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun apardığı elmi-tədqiqat işlərindən istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi və praktiki əhəmiyyəti**. Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- iqtisadi münasibətlərin ən mühüm tərkib hissəsi kimi xarakterizə edilməklə bazarın fəaliyyəti elmi cəhətdən əsaslandırılmışdır;
- aqrar bazarın formalaşdırılmasının obyektiv zəruriliyi əsaslandırılmışdır;
- aqrar sahə müəssisələrinin maliyyə sahəsində mövcud çatışmazlıqları və uyğunsuzluqları aşkara çıxarılmış və onların həlli yolları göstərilmişdir.
- aqrar sahədə mövcud təsərrüfat formalarının maliyyə vəziyyətinin, pul-kredit, büdcə, qiymət, vergi və sığorta kimi iqtisadi vasitələr arasında asılılıq dərəcəsi və bu sahədə həlli qarşıda duran vəzifələr müəyyənləşdirilmiş, yaranmış problemlərin aradan qaldırılması imkanları aşkara çıxarılmışdır;

- aqrar bazarın səmərəliliyini təmin etmək üçün tənzimlənmə siyasətində xüsusi əhəmiyyət kəsb edən iqtisadi mexanizmin təkmilləşdirilməsinin əsas istiqamətləri müəyyənləşdirilmişdir.

Tədqiqatın nəticələri əsasında hazırlanmış təkliflər aqrar bazarın inkişafının stimullaşdırılması, istehsalının artırılması, yerli məhsullarla təmin olunması səviyyəsinin yüksəldilməsi, daxili bazarın qorunması, tənzimlənmə siyasətində istifadə olunan iqtisadi vasitələrin tətbiqinin səmərəliliyinin yüksəldilməsi, aqrar sahədə və xarici əmtəə bazarlarının formalaşması, məhsulların ixracı və idxalı arasındakı əlaqələrin inkişafı baxımından praktiki əhəmiyyət kəsb edir.

**Tədqiqatın nəticəsinin sınaqdan keçirilməsi və istifadə edilməsi.** Tədqiqatın nəticələri Azərbaycan Dövlət Aqrar Universitetində, Azərbaycan Elmi- Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda, həmçinin respublikamızın digər elm və təhsil müəssisələrində keçirilən konfrans və seminarlarda məruzə edilmiş və bəyənilmişdir (Azərbaycan Respublikası Milli Elmlər Akademiyası Gəncə Regional Elmi Mərkəzinin 15.04.2013 tarixli 2013/01-29 saylı arayışı).

**Dissertasiya işinin həcmi və quruluşu**. Dissertasiya işi giriş, üç fəsil, nəticə və təkliflərdən ibarət olub, 1,5 interval kompüter yazısı ilə 160 səhifədən ibarətdir. Burada 18 cədvəlvə 4 şəkilverilmişdir. İşinsonunda müxtəlif adda 114 ədəbiyyat siyahısı göstərilmişdir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin birinci fəsli **"Aqrar sahədə bazar münasibətlərinin formalaşdırılmasının nəzəri-metodoloji əsasları"** adlanır. Bu fəsildə aqrar sahədə bazar münasibətlərinin formalaşdırılmasının iqtisadi məzmunu, aqrar sahənin iqtisadi vasitələrlə tənzimlənmə mexanizminin mahiyyəti və təkmilləşdirilməsinin zəruriliyi, aqrar sahənin inkişafında dövlət tənzimlənməsinin rolu araşdırılmışdır.

Araşdırmalar göstərir ki, aqrar sahədə bazar münasibətlərinin formalaşması obyektiv zərurət olmaqla, qanunauyğun prosesin nəticəsidir. Aqrar sahədə bazar münasibətləri çox mürəkkəb tərkib və quruluşa malik olmaqla özünəməxsus təşkilati-iqtisadi idarəetmə mexanizminin olmasını tələb edən sahələr və müəssisələrarası istehsal-iqtisadi inteqrasiya əlaqələrinin formalaşmasını obyektiv və qanunauyğun zərurətə çevirən bir sistemdir. Bu sistem daxilində hər biri tam sərbəst hüquqi statusa malik çoxsaylı və istiqamətli təsərrüfatçılıq formaları mövcud aqrar sahəyə vahid idarəetmə obyekti kimi baxılmasının zəruriliyini təsdiq edən iqtisadi amillərlə razılaşmaq olmaz.



Aqrar sahə və onun tənzimlənməsinin iqtisadi mexanizmi mürəkkəb iqtisadi münasibətləri əhatə etdiyindən yaranma prosesi və inkişaf mərhələlərinə nəzər salınmasının, onun nəzəri əsaslarının hərtərəfli öyrənilməsinin olduqca mühüm elmi və praktiki əhəmiyyəti vardır.

Tədqiqatlar göstərir ki, bazarın öz ilkin və məhdud sərhədlərini aşması istehsal münasibətlərinin dəyişməsinin təsiri altında baş vermişdir. Probleмə qlobal aspektlərdən yanaşaraq belə qənaətə gəlmək olar ki, bazarın ilkin rüşeymləri erkən sinifli cəmiyyətin yaranmasına və ictimai əmək bölgüsünün formalaşmasına təsadüf etmişdir. Lakin bütün bunlar heç də o demək deyildir ki, bazar məhz erkən sinifli cəmiyyətdə formalaşaraq iqtisadiyyatın səmərəli və işlək mexanizminə çevrilmişdir. Bazarın formalaşma dövrünün başa çatması tarix etibarı ilə XVII əsrin ortalarına təsadüf edir. Həmin dövrdə bazarın formalaşması üçün zəruri olan tarixi ilkin şərait və zəruri infrastruktur, iqtisadi sistemin dominant qanunları və hakimiyyəti altında artıq yaranmışdı.

Dünya dövlətlərinin təcrübəsi göstərir ki, postsosialist iqtisadiyyatında səmərəli və balanslaşdırılmış bazar münasibətlərinin formalaşması və fəaliyyəti aşağıdakı meyarlarla şərtlənir:

- ilk növbədə plüralizminin yaradılması, azad rəqabətin və iqtisadi müstəqilliyin hakim mövqe tutması;
- sərbəst qiymətqoyma mexanizminin formalaşdırılması, qiymətlərin istehsalçı və istehlakçı arasında qarşılıqlı razılaşmalar nəticəsində formalaşması;
- maddi, əmək və maliyyə resurslarının sərbəst hərəkətinin təmin olunması;
- bazar infrastrukturlarının səmərəli fəaliyyətinin təmin olunması;
- iqtisadiyyatın bazar və qeyri- bazar sektorları arasında saxlanılmasında dövlətin təsir və tənzimlənmə vasitələrinə malik olması;
- milli iqtisadiyyatın beynəlxalq iqtisadi münasibətlərə səmərəli inteqrasiya olunması;
- cəmiyyətin bütün üzvlərinə dövlət tərəfindən zəruri sosial təminatların yaradılması.

Dünya təcrübəsi göstərir ki, iqtisadiyyatda səmərəli və çevik aqrar bazarın formalaşdırılması dövlətin kənd ləsərrüfatı və ərzaq məhsullarına olan tələbatının xüsusi mənbələr hesabına ödənilməsinə imkan verir. İqtisadiyyatda inkişaf etmiş aqrar bazarın formalaşdırılması aqrar sahənin mövcud vəziyyətindən əhəmiyyətli dərəcədə asılıdır. Bu amil isə bilavasitə onunla şərtlənir ki, bazarın maddi əsasını istehsal təşkil edir. Odur ki, aqrar bazarın formalaşdırılması və səmərəliliyinin yüksək olması da iqtisadiyyatın aqrar

sahəsində məhsul istehsalının həcmindən, dinamikasından və strukturundan əhəmiyyətli dərəcədə asılıdır.

Aqrar bazar müasir bazar iqtisadiyyatının ən mühüm tərkib elementlərindən biri hesab edilir. Aqrar bazar əhatə etdiyi ərazi, onun təşkili, formaları və qarşıya qoyulan konkret məqsəd baxımından müxtəlif aspektlərdə fəaliyyət göstərir. Belə ki, müxtəlif iqtisadi sistem şəraitində məhsul istehsalı, tədarükü, bazarın iqtisadi qanunlarının mahiyyəti və əsas tələbləri dəyişmir. Lakin fəaliyyət şəraitinin müxtəlifliyi baxımından onların təzahür formaları da müxtəlif olur və bir-birindən fərqlənir.

Apardığımız araşdırmalardan belə qənaətə gəlmək olar ki, aqrar bazar ölkə iqtisadiyyatına söykəndiyi üçün onun təşkili və səviyyəsi hər bir ölkədə xalqın əmək vərdişlərindən, aqrar sahəyə münasibətindən, şüurundan, fərdiyyəçilik və kollektivçilik ənənələrinin kök salmasından bilavasitə asılıdır. Aqrar bazarın formalaşdırılması və müvəffəqiyyətli inkişafında ilkin şərtlərdən biri bütövlükdə milli iqtisadiyyatda onun subyektlərinin yaradılması və obyektlərinin genişləndirilməsidir. Bunun üçün isə bütövlükdə milli iqtisadiyyatda əmək, kapital və torpaq kimi sərvətlərin istehsal amillərinin düzgün bölgüsü və səmərəli istifadəsi xüsusi əhəmiyyət kəsb edir.

Dissertasiya işinin **“Aqrar sahənin formalaşmasinin hazırkı vəziyyəti və inkişaf meylləri”** adlanan ikinci fəslində aqrar sahənin mövcud vəziyyəti və dinamikası, aqrar sahədə iqtisadi islahatlar və onun ilkin sosial-iqtisadi nəticələri, aqrar sahənin dövlət tənzimlənməsinin iqtisadi mexanizminin hazırkı vəziyyəti təhlil edilmişdir.

Təhlil göstərir ki, aqrar sahədə bazar münasibətlərinin formalaşması məqsədilə dövlət səviyyəsində bu sahənin inkişafı üçün bir sıra köklü tədbirlər həyata keçirilmiş və bu proses hal-hazırda da davam etdirilməkdədir. Belə ki, uzun müddət formalaşmış inzibati idarəetmə sistemi yeniləşdirilmiş, kənd və rayon səviyyələrində müvafiq idarəetmə orqanları ləğv edilmiş, respublika səviyyəsində isə idarəetmənin təşkilati strukturu sadələşdirilmiş və onların vəzifə funksiyaları dəqiqləşdirilərək bazar prinsiplərinə uyğunlaşdırılmışdır. Hazırda Azərbaycan kəndində çoxukladlı iqtisadiyyatın prinsiplərinə uyğun yeni mülkiyyət və sahibkarlıq subyektlərinin normal fəaliyyət göstərməsi üçün əlverişli mühit yaradılmışdır.

Qeyd edilənlərin təhlili göstərir ki, 2000-2011-ci illər ərzində respublika üzrə ÜDM 9,2 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 3,6 dəfə artmışdrr. 2000-ci ildə kənd təsərrüfatının ümumi məhsulu iqtisadiyyat üzrə ÜDM-nin 15,9 faizini təşkil etdiyi halda, bu sahənin payı ildən-ilə azalaraq, 2011-cı ildə ovçuluq və meşəçiliklə birlikdə 5,5 faizə bərabər olmuşdur. Təbii ki, kənd təsərrüfatının ümumi məhsulunun illik artım sürəti də ÜDM-in artım



sürətindən aşağı olmuşdur. 2011-ci ildə ÜDM-nin sahələr üzrə bölgüsünə nəzər saldıqda əsas paya sənaye sektorunun 53.9 % sahib olduğunu görürük.Tikintinin də sahəsində son 5 ildə olduğu kimi 2011-ci ildə də ÜDM-də payı kifayət qədər yüksək -8,3% olmuşdur. Kənd təsərrüfatının ÜDM –də payı ötən ildə olduğu kimi 5,5% təşkil etsə də bu müəyyən irəliləyiş göstəricidir. Belə ki, 2010-cu ildə ÜDM 41574,7 milyon manat, 2011-ci ildə bu göstərici 8494,3 milyon manat artaraq 50069, 0 milyon manata bərabər olmuşdur.Analoji vəziyyət son 6 ilin məlumatlarını təhlil etdikdə də ortaya çıxır. Belə ki, 2006-cı ildə ÜDM 18037,1 milyon manat, kənd təsərrüfatının ÜDM-də payı isə 9, 2 % olduğu halda, 2011-ci ildə bu göstərici müvafiq olaraq 50069.0 milyon manat və 5,5 % -ə bərabər olmuşdur.




Şək. 1. 2011 –ci ildə iqtisadiyyatın sahələri üzrə ÜDM-in bölgüsü, faizlə

Rəsmi statistik məlumatlara görə 2011-ciildə respublika üzrə iqtisadiyyatda işləyənlərin 37,9 faizi kənd təsərrüfatının payına düşür. Kənd təsərrüfatında çalışanların orta aylıq əmək haqqı da digər sahələrdən xeyli aşağıdır. 2011–ci ildə respublika üzrə orta aylıq əmək haqqı 518,6 manat olmuşdursa, kənd təsərrüfatında çalışanların orta aylıq əmək haqqı cəmi 53,9 manat olmuşdur. Başqa sözlə, 2000 -ci ildə kənd təsərrüfatında çalışanların orta aylıq əmək haqqı iqtisadiyyat üzrə orta göstəricidən 1,9 dəfə geri qalırdısa, bu fərq 2011-ci ildə 2,5 dəfəyə yüksəlmişdir.

Son illərdə kənd təsərrüfatında əsas kapitala yönəldilən investisiyaların həcmi artsa da (2011-ci ildə 437,3 mln manat və ya cəmi iqtisadiyyatda əsas kapitala yönəldilmiş investisiyaların 3,4 faizi), bu məbləğ kənd təsərrüfatının problemlərini həll etmək iqtidarından çox uzaqdır. Son on ildə kənd təsərrüfatının əsas fondları 11,2 dəfə artsa da, bu rəqəm bütövlükdə respublika iqtisadiyyatı üzrə əsas fondların artımından təxminən 2 dəfə geri qalır və 2011-ci ildə bu sahənin əsas fondlarının payı cəmi 7,5% təşkil etmişdir.

Respublikada aparılan aqrar islahatların 1995-ci ildən sonra daha da sürətlənməsinə baxmayaraq, bu gün kənd təsərrüfatı məhsullarını emal edən müəssisələrin yaradılması, aqrar sahənin müasir tələblərə cavab verən infrastrukturunun təşəkkülü, kənd təsərriifatı müəssisələri arasında koope-

rasiya əlaqələrinin təşkili və s. qənaətbəxş deyildir.

2000 -2011-ci illər ərzində respublikada kənd təsərrüfatı məhsullarının hər tonunun satış qiyməti və maya dəyəri haqqında məlumatların təhlili göstərir ki, son illərdə kənd təsərrüfatı məhsulları istehsalı gəlirlə başa gəlmişdir. Kənd təsərrüfatı müəssisələrində taxılın əkin sahəsinin istehsalında 1 hektardan əldə edilən mənfəət 2011-cı ildə-270,2 manat; bostan bitkiləri üzrə 1051,0manat; üzümdə-381,4manat; çay yarpağında-290,0 manat olmuşdur.

Bütün bunlar onu göstərir ki, kənd təsərrüfatı məhsullarının istehsalına çəkilən xərclər onların satış qiymətindən daha sürətlə artmaqdadır və belə meyl respublikada fermer təsərrüfatının inkişafını ləngidən amillərdəndir. Buna görə də kənd təəsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən birbaşa yardımlar (subsidiyalar) verilməlidir. Hazırda bəzi xarici ölkələrdə aqrar sahənin xərclərinin yarıya qədəri, Finlandiyada 71 % , Norveçdə 77%, İsveçdə 59%, Yaponiyada 66%, ABŞ-da 69%, Kanadada isə 73% dövlət subsidiyaları ilə ödənilir.

Araşdırmalar göstərir ki, Azərbaycanın kənd təsərrüfatı bu gün əhalinin ərzaq məhsullarına olan tələbatını tam ödəməsə də, son illərdə həm bitkiçilik, həm də heyvandarlıq məhsullarının istehsalı artdığından, bəzi məhsullar üzrə istehlak tələbatı ödənilməyə başlamışdır. Rəsmi statistikaya görə kartof, tərəvəz və bostan məhsulları, çörək və çörək məmulatları üzrə istehlak tələbi artıqlaması ilə, süd və süd məhsulları üzrə 73,7 faiz, yumurta üzrə 43,9 faiz ödənilir. Lakin Azərbaycanda hər nəfərə görə istehlak edilən əsas qida məhsulları: Rusiya ilə müqayisədə ət və ət məhsulları 1,6 dəfə, yumurta 2,0 dəfə, kartof 1,9 dəfə aşağı, digər məhsullar - süd və süd məhsulları 1,2 dəfə, tərəvəz və bostan məhsulları 1,9 dəfə, meyvə və giləmeyvə 1,5 dəfə, çörək məhsulları 1,4 dəfə yüksəkdir.

Məlumatlar göstərir ki, 2000-ci illə müqayisədə 2011- ci ildə şəkər istehlakı 1,9 dəfə, bitki yağları istehlakı 3 dəfə, kartof istehlakı 26 %, yumurta istehlakı 26,2 %, balıq və balıq məhsulları istehlakı 55,5 %, ət məhsulları istehlakı 47,2 %, süd və süd məhsulları istehlakı 2,03 dəfə artmışdır (cədvəl 1).

Son illərdə respublikanın kənd təsərrüfatında narahatçılıq doğuran problemlerdən biri bir sıra strateji məhsul növləri, məsələn, pambıq, tütün, üzum, çay və s. əkin sahələrinin kəskin surətdə azalmasıdır. Kənd rayonlarında torpaqların əksəriyyətinin özəlləşdirilməsi nəticəsində burada əkiləcək bitki növünün seçilməsi fermerlərin ixtiyarına verilmiş, faktiki olaraq yuxarıda göstərilən bitkiçilik məhsullarının becərilmə xərclərinin çox olması, kənd təsərrüfatı texnikasının çatışmaması, suvarma kanallarından, mineral



gübrələrdən isifadənin bahalaşması, becərilmiş məhsullara bazarlarda formalaşmış qiymətlərin maya dəyərindən də aşağı olması bir sıra fermerləri müflisləşdirmiş, bir qismi hətta özəlləşdirilmiş torpaqlarından məhrum olmuşdur.

Cədvəl 1

Hər nəfərə görə il ərzində bəzi ərzaq məhsullarının istehlakı, kq

| Ərzaq məhsulları | Tibbi baxımdan əsaslandırılmış norma, kq | İllər üzrə istehlak | | | | | 2011 –ci ildə 2000-ci ilə nisbətən %-lə | Tələbatla müqayisədə 2011-ci ildə istehlakın səviyyəsi %-lə |
|---|---|---|---|---|---|---|---|---|
| | | 2000 | 2005 | 2007 | 2010 | 2011 | | |
| Çörək və çörək məmulatları | 130 | 158 | 140,0 | 182 | 153,4 | 147,7 | 93.4 | 113.6 |
| Ət və ət məhsulları | 72 | 22 | 40,3 | 29,2 | 31,5 | 32,4 | 47.2 | 45.0 |
| Süd və süd məhsulları | 380 | 154 | 72,1 | 280,2 | 301 | 312,8 | 2.3 dəfə | 82.3 |
| Balıq və balıq məhsulları | 30 | 2,7 | 22 | 6,6 | 6,9 | 6,9 | 2.5 dəfə | 23.0 |
| Yumurta, ədədlə | 280 | 112 | 45,0 | 123 | 131,4 | 141,4 | 26.2 | 50.5 |
| Kartof | 80 | 47 | 113,7 | 97 | 54,6 | 59,3 | 52.1 | 74.0 |
| Tərəvəz və bostan məhsuları | 146 | 129 | 119,9 | 192 | 84,1 | 90,9 | 70.4 | 74.0 |
| Bitki yağları | 13 | 3,1 | 63,8 | 8,4 | 8,8 | 9,3 | 3 dəfə | 71.0 |
| Şəkər | 38 | 16,8 | 81,1 | 31 | 31,5 | 32.0 | 1.9 dəfə | 84.2 |

Respublika ərazisinin xeyli hissəsini dağlıq və dağətəyi ərazilər təşkil edir. Dağlıq ərazilərdə yaşayan əhalinin həyat səviyyəsi çox aşağı, miqrasiya isə çox yüksəkdir. Burada əkinə yararlı sahələr az olduğundan, əkinçiliklə məşğul olmaq üçün şərait pisləşmiş, torpaqların 40%-ə qədəri müxtəlif dərəcədə, o cümlədən 25%-i orta və şiddətli dərəcədə eroziyaya uğrayaraq əkin dövriyyəsindən çıxmışdır.Dağ kəndlərində əhalinin əsas gəlir mənbəyi maldarlıq olduğundan, son illərdə mal-qaranın sayı xeyli artmış, otlaq problemi və yem çatışmazlığı ortaya çıxmışdır.

Bütün baş verənləri nəzərə alaraq, vaxtilə pambıq, üzüm, çay, tütün becərilən regionlarda bu məhsulların istehsalına başlanılmalı, fermerlər müvafiq aqrotetxniki servis xidmətləri ilə təmin olunmalı, kənd təsərrüfatı maşın və avadanlıqlarının lizinqi ilə məşğul olan qurumların sayının artırılmasına yardım edilməlidir.

Aqrar sahənin dövlət tənzimlənməsinə münasibət də aqrar islahatların gedişinə, onun son nəticələrinə təsir edən əsas amillərdəndir. Belə ki, aqrar sahə digər sahələrdən fərqli olaraq, istər məhsul istehsalında və məhsul satışında, istərsə də artıq istehsal şəraitində dövlət himayəsi və yardımına ehtiyacı vardır. Burada dövlət tənzimlənməsi əsasən kənd təsərrüfatı məhsulları istehsalının stimullaşdırılması, təsərrüfatlarının və kooperativlərin gəlirlə iş-

ləməsinin təmin olunması, infrastrukturun inkişafı, ətraf mühitin mühafızəsi və s. tədbirlərdən ibarətdir. Kənd təsərrüfatında iqtisadi və hüquqi fəaliyyətin bütün istiqamətlərini əhatə edən və onu tənzimləyən qanunların və normativ aktların mövcudluğu da zəruri şərtlərdən biridir. Məhz belə qanunların əsasında kənd təsərrüfatının inkişafı, ayrı-ayrı kənd təsərrüfatı məhsullarının istehsalı və satışı müxtəlif iqtisadi mexanizmlər-vergi, kredit, büdcə təxsisatları, dotasiya və s. vasitəsilə stimullaşdırılır.

Hazırda aqrar siyasətin başlıca məqsədi ölkənin ərzaq təhlükəsizliyini təmin etməkdən ibarət olmaqla, həm də kənd yerlərində əhalinin yoxsul təbəqələrinin həyat şəraitini yaxşılaşdırmağa, onların məşğulluğunu təmin etməyə, daxili bazarın qorumasına, əlverişli xarici əlaqələrin qurulmasına, emal sənayesi müəssisələrinin müxtəlif kənd təsərrüfatı xammalına olan tələbatının ödənilməsinə xidmət etməlidir. Buna görə də ilk növbədə, ödənilməyən ərzaq tələbatının səviyyəsi bərpa edilməli, istehsal və idxal olunan ərzaq məhsullarının keyfiyyəti, əhalinin istehlak etdiyi ərzaq məhsullarının strukturu yaxşılaşdırılmalıdır.

Aqrar sahənin hazırkı vəziyyətində ölkənin maliyyə sisteminin əsaslı və sabit inkişafını təmin etmək üçün ilk növbədə məhsul istehsalını artırmaqla daxili bazarın fəaliyyətinin səmərəliliyinə nail olunmalıdır. Bu isə kifayət qədər maliyyə vəsaitinə malik olmayan əmtəə istehsalçılarına dövlət köməyini, xüsusilə onların təsərrüfat fəaliyyətinin aktivləşdirilməsində son dərəcə əhəmiyyətli olan kredit resurslarının istehsalçıların iqtisadi maraqları nəzərə alınmaqla (güzəştli kredit faizlərinin tətbiqi və s.) bu istiqamətə yönəldilməsini tələb edir.

Dissertasiya işinin üçüncü fəslində - **“Aqrar sahənin inkişafinin iqtisadi mexanizminin təkmilləşdirilməsinin prioritet istiqamətləri”** - pul-kredit siyasətinin, büdcə-vergi sisteminin, sığorta münasibətlərinin təkmilləşdirilməsi məsələləri şərh edilmişdir.

Beynəlxalq təcrübədə aqrar sahənin iqtisadi mexanizminin tərkib hissəsi olan iqtisadi vasitələrlə tənzimləmə vasitəsi kimi pul-kredit sistemindən istifadə geniş yer tutur. Onun iqtisadi mahiyyətini pul tədavülünün sabitləşdirilməsi, kredit faizlərinin iqtisadi proseslərin istiqamətindən asılı olaraq müəyyənləşdirilməsi və s. təşkil edir. Başqa sözlə, pul-kredit vasitəsilə dövlətin iqtisadi tənzimləmə siyasəti iqtisadiyyatın müxtəlif sahələrinin kreditə olan tələbatının və ondan səmərəli istifadə mexanizminin hərəkətə gətirilməsi məqsədilə təklif olunan borc kapitalının miqdarı və qiymətini (faiz dərəcəsini) əsaslandırmağa xidmət edir.

Məlum olduğu kimi, kredit resurslarının hərəkət və istifadə mexanizmini respublikada Mərkəzi Bank formalaşdırır və bu sahəni dövlətin iqtisadi



siyasətinə uyğunlaşdırır. Yəni Mərkəzi Bank iqtisadiyyatın bazar modelinə keçidi ilə əlaqədar beynəlxalq təcrübədə geniş istifadə olunan bazarda kredit əməliyyatlarını təşkil etməklə, mərkəzləşdirilmiş kredit resurslarına görə faiz dərəcələrini və məcburi ehtiyat normalarını müəyyənləşdirməklə və s. kredit tənzimlənməsinin tam formalaşmasını ön plana çəkir.

Hazırda Mərkəzi Bank respublikamızda kredit ehtiyatlarının əsas mənbəyi kimi iqtisadiyyatın, eləcə də ayrı-ayrı müəssisələrin bir-birilə və dövlətlə əlaqələrinin tənzimlənməsində öz resurslarından istifadə edir. Burada maliyyə orqanları, xüsusi funksiyaları olan fondlar və banklar, özəl banklar və s. diqqəti daha çox cəlb edir. Bu qurumlar kredit əməliyyatlarında iştirak etməsələr də ölkədə pul vəsaitinə olan tələbi və xüsusi borc kapitalının hərəkətini tənzimləyə bilmir, ona yalnız müəyyən dərəcədə təsir göstərirlər.Məlumdur ki, dövriyyədəki pul kütləsinin həcmi öz növbəsində hər bir ölkədə milli valyutanın davamlılığını və iqtisadi aktivliyin səviyyəsini müəyyən edən amillərdəndir. Tədavüldəki pul kütləsinin artım sürətinin dəyişməsi isə pulun tədavül sürətinə, həmçinin istehsalın həcminə təsir göstərməklə maliyyə sisteminin funksionalığının artmasında mühüm rol oynayır.

Ölkədə bank sektorunun daim inkişaf etdirilməsi, iqtisadiyyata bank xidmətinin yaxşılaşdırılması üçün bank infrastrukturunun inkişafı üzrə ardıcıl tədbirlər görülmüşdür. Elektron ödəniş sisteminin yaradılması layihəsinin birinci mərhələsi başa çatdırılmış, banklararası hesablaşmalarda iri ödənişlərin avtomatlaşdırılmış sistemi istismara verilmişdir. Bank sistemində mühasibat uçotu və maliyyə hesabatlığının beynəlxalq standartlara uyğunlaşdırılması işi faktiki olaraq başa çatdırılmışdır.

Məlumdur ki, kredit faizlərinin yüksəldilməsi kreditə olan təklifi aşağı salmaqla iqtisadiyyata yönəldilən pul vəsaitinin də azalmasına səbəb olur. Əksinə, kredit faizi dərəcələrinin aşağı salınması iqtisadiyyata əlavə vəsait qoyuluşuna şərait yaratmaqla iqtisadiyyatın dirçəlməsinə güclü təsir göstərə bilir. Kredit faizlərinin səviyyəsi həmçinin müəssisələrin istehsal xərclərinə və onların rəqabət qabiliyyətinə təsir edir. Bütün qeyd olunanların nəzərə alınması xüsusilə maliyyə resurslarının kifayət qədər olmaması müşahidə olunan kənd təsərrüfatı müəssisələri üçün son dərəcə əhəmiyyətlidir.

Son 5 ildə respublikada kredit qoyuluşlarının həcmində təqribən iki dəfə artım müşahidə olunmuşdur. Belə ki, 2007 –ci ildə ölkədə ümumi kredit qoyuluşlarının həcmi 4681.8 mln. manat olmuşdursa 2011-ci ildə bu rəqəm 9950.3 mln. manata artmışdır.Müvafiq dövr ərzində kənd təsərrüfatı və emal sahəsinə verilmiş kreditlərin həcmində də önəmli artım qeydə alınmışdır. 2007-ci ildə aqrar sektora kredit qoyuluşunun ümumi məbləği 197,2mln manat olmuşdursa 2011-ci ildə bu göstərici 2,4 dəfə artaraq 466,7 mln ma-

nata bərabər olmuşdur.Respublikada kredit qoyuluşlarının sahələr üzrə strukturuna nəzər saldıqda 2011-ci ildə ən çox kredit qoyuluşu 3315,0 mln manat ev təsərrüfatlarına və 2844,4 manat ticarət və xidmət sahələrinə verilmişdir ki, bu da ümumi kredit qoyuluşunun müvafiq olaraq 33,3 və 28,6 %-ni təşkil etmişdir.

Kredit qoyuluşlarının regional strukturu. Son illərdə ölkənin regionlarında bankların filiallarının sayının artmasına baxmayaraq hələ də bütün kredit qoyuluşunun 85 faizindən şoxu yalnız Bakı şəhərinin payına düşür.

Cədvəl 2

Kredit qoyuluşlarının sahələr üzrə strukturu, mln man.

| Sahələr | illər | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2007 | | 2008 | | 2009 | | 2010 | | 2011 | |
| | cəmi | xüsusi cəkisi %-lə | cəmi | xüsusi cəkisi %-lə | cəmi | xüsusi cəkisi %-lə | cəmi | xüsusi cəkisi %-lə | cəmi | xüsusi cəkisi %-lə |
| Ticarət və xidmət | 1194.0 | 25.5 | 1911.3 | 26.6 | 1834.0 | 21.8 | 2206.8 | 24.1 | 2844.4 | 28.6 |
| Energetika ,kimya və təbii sərvət lər | 302. | 6.5 | 855.7 | 11.9 | 1522.0 | 18.1 | 984.0 | 10.7 | 289.7 | 2.9 |
| Kənd təərrüfatı və emal | 197.2 | 4.2 | 261.5 | 3.6 | 394.8 | 4.7 | 441.3 | 4.8 | 466.7 | 4.7 |
| İnşaat və əmlak | 312.3 | 6.7 | 461.4 | 6.4 | 576.5 | 6.9 | 660.6 | 7.2 | 875.3 | 8.8 |
| Sənaye | 308.0 | 6.6 | 427.5 | 5.9 | 536.9 | 6.4 | 682.4 | 7.4 | 582.9 | 5.9 |
| Nəqliyyat və rabitə | 469.6 | 10.0 | 669.1 | 9.3 | 520.4 | 6,2 | 454.4 | 5.0 | 409.7 | 4.1 |
| Ev təsər rüfatları | 1657.2 | 35,4 | 2334.9 | 32.5 | 2328.9 | 27,7 | 2700.8 | 29.5 | 3315.0 | 33.3 |
| Digər | 241,5 | 5.2 | 241,8 | 3,4 | 694,0 | 8,3 | 1033.1 | 11.3 | 1166.6 | 11.7 |
| Cəmi | 4681.8 | 100 | 7191.3 | 100 | 8407.5 | 100 | 9163.4 | 100 | 9850.3 | 100 |

Abşeron da nəzərə alınmaqla Bakı□Abşeron ərazisində bütün kredit qoyuluşlarının 90.1 faizi istifadə edilir. Kredit qoyuluşunun təqribən 4□5 faizi kənd təsərrüfatı məhsullarının istehsalı və emalına, 67 faizi isə sənaye sektoruna yönəldilir.




Şək. 2. 2012-ci ilin ilk 6 ayı ərzində regionlar üzrə kredit qoyuluşunun bölgüsü %-lə



Məlumdur ki, pul-kredit siyasəti kimi dövlət büdcəsi də iqtisadi tənzimləmə vasitələrindən biri olaraq hər bir ölkənin iqtisadi siyasətində xüsusi yer tutur. Yəni dövlətin gəlir və xərclərinin əsas hissəsi dövlət büdcəsində öz əksini tapdığından o, ölkədə müxtəlif sosial-iqtisadi maraqların təminatçısı funksiyasını yerinə yetirməyə çalışır. Bu istiqamətdə büdcə siyasətinin əsas məqsədi ilk növbədə sosial sahədə sabitləşdirilməsii tədbirlər həyata keçirməklə mövcud iqtisadi sistemə uyğun olaraq sosial qrupların maddi vəziyyətinin fərqləndirilməsinin yumşaldılması, bir sözlə büdcə vəsaiti hesabına əhalinin alıcılıq qabiliyyətinin onların tələbatları səviyyəsinə yaxınlaşdırılmasının təmin olunmasıdır.

Sosial yönümdə aparılan belə tədbirlərdən biri əmək haqları, pensiyalar, müavinətlərlə bağlıdır və bu göstəricilər əhalinin pul gəlirində öz əksini tapdığından alıcılıq qabiliyyətinin səviyyəsinə də bu və ya digər şəkildə təsir edir. Qeyd edək ki, son illərdə respublikada həyata keçirilən uğurlu iqtisadi siyasət nəticəsində iqtisadiyyatın müxtəlif sahələrində məşğul olan əhalinin gəlirlərində əhəmiyyətli dərəcdə artım müşahidə olunmuşdur. Belə ki,2000-ci illə müqayisədə 2011-ci ildə bu artım kənd təsərrüfatı,meşə va balıqçılıq sahəsində fəaliyyət göstərən əhalinin gəlirləri 14,4 dəfə, mədənçıxarma sənayesində 7,2 dəfə ,emal sənayesində 6,0 dəfə, maliyyə və sığorta fəaliyyəti sahəsində 7,9 dəfəyə bərabər olmaqla iqtisadiyyatın bütün sahələri üzrə orta hesabla 8,2 dəfə olmuşdur.

Bazar münasibətləri şəraitində yetərli maliyyə-kredit vəsaitlərinə malik olmadan istehsalın, o cümlədən aqrar istehsalın intensiv inkişafını təmin etmək qeyri-mümkündür. Maliyyə-kredit münasibətləri bütövlükdə iqtisadiyyatın, o cümlədən aqrar sahənin yüksəldilməsində, maddi, əmək və digər ehtiyatlardan səmərəli istifadə edilməsində mühüm rol oynayır. O, nəinki kənd təsərrüfatı subyektlərində istehsal fondlarının dövriyyəsini, bütövlükdə geniş təkrar istehsal prosesini pul vəsaitləri ilə təmin edir. Eyni zamanda bölgünün, manatla nəzarətin təkmilləşdirilməsi, istehsalın inkişafı və stimullaşdırılması ilə bilavasitə əlaqədar olan fondların yaradılması və istifadəsi, həmçinin büdcə ilə qarşılıqlı əlaqələrin və maliyyə-kredit münasibətlərinin təkmilləşdirilməsi yolu ilə aqrar iqtisadiyyatın inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir.

Aqrar istehsalın intensivliyini təmin etmək məqsədi ilə dövlət tərəfindən stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi zəruridir.Stimullaşdırma tədbirləri ümumiyyətlə müxtəlif istiqamətlərdə həyata keçirilir, o cümlədən aqrar-sənaye kompleksində sahələrarası qiymət qeyri bərabərliyinin azaldılması və kənd təsərrüfatı məhsulları istehsalçılarının gəlirləri və xərcləri arasında uyğunsuzluğun zəiflədilməsi əsasında sahənin investisiya imkanları-

nın artırılması probleminin həllində ciddi irəliləyişlərə nail olmaq üçün aqrar istehsalçıların aldıqları istehsal vasitələrinin ən mühüm növlərinə (onların kənd təsərrüfatında istehsal xərclərinin formalaşdırılmasında rolunu nəzərə almaqla) ünvanlı subsidiyalar verilməsi təcrübəsinin genişləndirilməsi, eyni zamanda qiymətlərin tənzimlənməsinin bazar mexanizmlərinin formalaşdırılması, aqrar-sənaye sistemi daxilində fəaliyyət göstərən təsərrüfat subyektləri arasında inteqrasiya və kooperasiya əlaqələrinin inkişafı təmin edilməlidir.

Digər vacib məsələ aqrar-sənaye kompleksi sistemində kənd təsərrüfatında istehsala qoyulan investisiyaların əsas istiqamətlərinin müəyyənləşdirilməsində bazar mexanizmlərinin formalaşdırılmasıdır. Sahələrarası qiymət qeyri- bərabərsizliyin azaldılması kənd təsərrüfatı məhsulları istehsalçılarının gəlirlərinin xeyli artırılmasına imkan yaradır. Eyni zamanda istehsalın genişləndirilməsi baxımından məhdud sahəyə malik təsərrüfatların gəlirlərinin istehsal təyinatlı investisiyalara yönəldilməsi məsələsinin aktuallığı yüksəlir. Bunun üçün ilk növbədə fermerlərin özlərinin xüsusi vəsaitləri hesabına investisiya qoyuluşunun tətbiq mexanizmi formalaşdırılmalıdır.

Bununla yanaşı, istehsalçılara daha geniş dövlət investisiya yardımı mexanizminin yaradılması zəruridir. Maliyyə imkanlarının məhdudluğu şəraitində investisiya yardımlarının aqrar-sənaye kompleksinin, o cümlədən kənd təsərrüfatının inkişafı üzrə dövlətin məqsədli proqramları çərçivəsində öncül istiqamətlərin müəyyənləşdirilməsinə yönəldilməsi mühüm məsələlərdəndir. Bunun üçün bir tərəfdən istehsalçıların aldıqları kreditlər üçün faizlərin ödənilməsinə köməyin əsaslı şəkildə genişləndirilməsi, digər tərəfdən investisiya krediti resurslarının fermerlərin əldə etməsinə təminat yaradılması lazımdır. Bu istiqamətdə ilk növbədə kənd təsərrüfatı məhsulları istehsalçılarının aldıqları kreditlər üçün təminat və zəmanət sistemi yaradılmalıdır. Torpağın girov qoyulması mexanizminin formalaşdırılması ilə yanaşı xüsusiləşdirilmiş kredit zəmanəti institutunun yaradılması imkanlarının araşdırılması da məqsədəuyğundur.

Digər mühüm məqam aqrar-sənaye kompleksinə dövlətin kapital qoyuluşunun müəyyənləşdirilməsində müstəqil iştirakının səmərəliliyinin yüksəldilməsidir, o cümlədən kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin bərpa edilməsi və yüksəldilməsi, torpaq və su ehtiyatlarının qorunması, istehsal infrastrukturunun inkişaf etdirilməsi, işlərin məqsədli proqramlar üzrə tam həcmdə maliyyələşdirilməsi məsələləri həll edilməlidir. Büdcədən investisiya qoyuluşları üçün ayrılan vəsaitin bölüşdürülməsində aqrar sferanın öncüllüyünün diqqətdə saxlanılması, bu xətt üzrə kənd təsərrüfatına yönəldilən vəsaitin nisbi həcmi ilə aqrar sektorun ümumi daxili məhsulda payı arasında uyğunluğun gözlənilməsi məqsədəuyğundur.



Büdcə-vergi sistemi iqtisadiyyatın təkanverici mexanizmi olub, onun səmərəli fəaliyyəti üçün böyük əhəmiyyət kəsb edir. Məhz bu baxımdandır ki, respublikamız müstəqillik qazandıqdan sonra ölkə iqtisadiyyatını bazar münasibətlərinin tələblərinə uyğunlaşdırmaq məqsədilə həyata keçirilmiş iqtisadi alaşdırılması tədbirləri prioritetlərdən hesab olunmuşdur. Büdcənin gəlirləri istehsal və qeyri-istehsal sahələrinin əldə etdikləri mənfəətdən və bunun müqabilində ödədikləri vergilərdən, həmin sahələrin özünün inkişafı isə qismən və ya tamamilə büdcədən maliyyələşdirmələrdən xeyli asılıdır. Dövlət büdcəsinin istehsal sahələri ilə qarşılıqlı əlaqələrinin ən təsirli metodlarından vergiqoyma və istehsal sahələrinin stimullaşdırılmasını göstərmək olar. İstehsala bu yolla təsir göstərilməsi metodu eyni zamanda dövlət büdcəsinin öz daxili iqtisadi mahiyyətini və rolunu da daha dərindən və geniş şəkildə aşkar etməyə imkan verir. Büdcənin istehsal sahələrinə aşağıdakı istiqamətlərdə: ümumi daxili məhsulun bölüşdürülməsi və yenidən bölüşdürülməsi, iqtisadiyyatın dövlət tənzimlənməsi, sosial-iqtisadi siyasətin həyata keçirilməsinin maliyyə təminatı və mərkəzləşdirilmiş pul vəsaitləri fondlarının yaradılması və istifadəsi prosesində onun məqsədyönlü olmasına dair bu sahəyə aid olan bütün qanunların gözlənilməsinə nəzarət edilməsinin təsir göstərdiyini qeyd etmək lazımdır. Bu funksiyaların yerinə yetirilməsi vasitəsilə büdcə həm istehsalın inkişafını və ümumi daxili məhsulun yaradılmasını, həm də onun bölgüsünü və yenidən bölgüsünü təmin edir.

Aqrar sahədə maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi və inkişafında perspektiv maliyyə mənbəyi sayılan sığorta fəaliyyətinin böyük rolu vardır. Xarici təcrübə göstərir ki, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan sahibkarlara dövlət tərəfindən verilən dəstəyin mühüm forması istehsal edilən kənd təsərrüfatı məhsullarının müəyyən risklərdən və təbii fəlakətlərdən sığorta etdirilməsi, ödəniləcək sığorta haqqının müəyyən hissəsinin dövlət tərəfindən verilməsidir.

Aqrar sektorun təbiət hadisələrinə qarşı (sel, qasırğa, dolu, şaxta vurması, daşqın, quraqlıq, yanğın, zəlzələlər, vulkan püskürmələri və s.) həddindən artıq həssas olması fermerlərin riskini artırmaqda və onların pul və kapital bazarlarından vəsait təmin etmə imkanlarını məhdudlaşdırmaqdadır. Bu baxımdan, bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatı məhsullarının sığortalanması dövlət tərəfindən stimullaşdırılmış və bu sektora qoyulan kreditlərin risklərinin azaldılması məqsədilə "kreditlərin zəmanəti fondu" yaradılmışdır. Bu fondların başlıca məqsədi kənd təsərrüfatı subyektlərinin aldığı kreditlər üçün banklara zəmanət verməkdir.

Aqrar kredit zəmanəti fondları dövlət sərmayəsi ilə, dövlət-özəl sektor əməkdaşlığı ilə, dövlət-beynəlxalq fond əməkdaşlığı ilə və nəhayət dövlət-

özəl sektor-beynəlxalq fond əməkdaşlığı ilə formalaşdırıla bilər.

Fondlar tərəfindən zəmanət üçün təqdim edilən təminatın maksimum səviyyəsi müxtəlif ölkələrdə fərqlidir (Nigeriyada 75%, ABŞ-da 95%, Ruminiyada 100%). Bəzi ölkələrdə isə, maksimum limit konkret məbləğlə ifadə olunarkən (Türkiyə),digərlərində (Litva) həm məbləğlə, həm də faizlə müəyyənləşdirilmişdir.

Qeyd etmək yerinə düşər ki, milli sığorta bazarında fəaliyyət göstərən sığorta şirkətləri tərəfindən, 2005-2011-cı illər ərzində kənd təsərrüfatı məhsullarının sığortası üzrə yığılmış sığorta haqlarının həmin dövrlər üzrə daxil olmuş ümumi sığorta haqlarındakı xüsusi çəkisi, ən yaxşı halda 0,05% təşkil etmişdir. Ümumilikdə, aqrar sahədə sığorta haqlarının yığımı, eyni zamanda baş vermiş sığorta hadisələri ilə əlaqədar ödənilmiş sığorta məbləğinin həcmi heç də ürəkaçın səviyyədə olmamışdır. Bu baxımdan, qeyd olunan qanunun fəaliyyət göstərdiyi müddətdə dövlət və sığorta şirkətləri tərəfindən aqrar sahə məhsulları istehsalçıları arasında düzgün təbliğat işinin aparılması çox vacib idi.




Şək. 3..2013-cü ilin 1 yanvar tarixində sosial sığorta sistemində uçota alınan sığorta etdirənlərin strukturu.

Belə olduğu təqdirdə, kənd təsərrüfatından daxil olan sığorta haqları xeyli yüksək ola bilərdi. Eyni zamanda bu sahə üzrə beynəlxalq təcrübəni yaxından öyrənərək mövcud qanunvericiliyə zəruri düzəlişlərin edilməsinə də ehtiyac yaranmışdır.

Araşdırmalar göstərir ki, Azərbaycanın sığorta bazarında beynəlxalq sığorta təcrübəsindən fərqli meyllər müşahidə olunur. Qeyri-həyat sığortasının sığorta məhsulları həcmində aparıcı mövqeyə məxsus olması ölkənin sığorta bazarının özünəməxsus xüsusiyyətlərindəndır. Son illər ərzində bu sığorta məhsulu cəmi sığorta haqlarının 87-92% təşkil edibdir. 2011-ci ildə sığorta haqlarının strukturunda həyat sığortasının xüsusi çəkisi icbari sığortada 30%könüllü sığortada 2% olmuşdur. Halbuki inkişaf etmiş sığorta bazarlarında bazarın 55-60%-i həyat sığortası hesabına formalaşır. Nəzərə alsaq ki, dünyada həyat sığortasının bütün növləri yığım xarakteri daşıyır, o cümlədən vətəndaşların maddi vəziyyətlərinin yaxşılaşdırılmasına xidmət edir, Azərbaycanda əksinə, bu sığorta növü üzrə daxilolmalar ildən-ilə azalır. Sığorta haqlarının həcmində həyat sığortası çox aşağı, əhəmiyyətsiz göstəricilərlə ifadə olunur. Bu məhsulun xüsusi çəkisi cəmi sığorta məhsullarının 1%-i təşkil edir. Müvafiq dövrdə ölkədə həyat sığortasının növləri üzrə daxilolmaların həcmi 55,2 faiz azalaraq 1 mln. manata, sığorta ödənişləri isə 385,50 min manata düşüb. Əvəzində qeyri-həyat sığortası 25,4 faiz artaraq 156,41 mln. manat, icbari sığorta növləri üzrə 4 faiz artaraq 21,85 mln. manat təşkil edib. Həyat sığortasının sığorta haqlarında xüsusi çəkisinin aşağı olması ümumilikdə cəmiyyətin, ayrılıqda əhalinin həyat səviyyəsinin inkişaf imkanları, bu sığorta məhsulunun təşviqat imkanlarının zəifliyi və sığorta institutlarının müvafiq inkişaf səviyyəsi ilə əlaqələndirmək olar.



Bu istiqamətdə xarici ölkə təcrübələri böyük maraq doğurur. Bu təcrübədən yetərincə istifadə edilməsi nəticəsində milli aqrar sığorta bazarının inkişafına nail olmaq mümkündür. Məsələn, qonşu Türkiyə Respublikasında 2005-ci il tarixdə “Tarım sığortaları Kanunu” (“Kənd təsərrüfatı məhsullarının sığortası haqqında Qanun”u) qəbul edilib. Bu qanunun qəbulunda əsas məqsəd – aqrar sahədə aparılan sığorta işinin inkişaf etdirilməsi üçün əhalinin kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan təbəqəsinə dövlət dəstəyinin verilməsi, baş vermiş təbii fəlakətlər nəticəsində dəymiş zərərin əvəzinin ən qısa müddətdə ödənilməsindən, dövlət büdcəsindən bu məqsədlər üçün ayrılmış vəsaitlərin düzgün xərclənməsindən ibarətdir.

Türkiyədə kənd təsərrüfatı sığortasının keyfiyyətli aparılması, bununla bağlı olan qanunun tələblərinin düzgün yerinə yetirilməsi, bağlanmış müqavilələr üzrə daxil olmuş sığorta haqlarının vahid mərkəzdə toplanması, habelə baş vermiş təbii fəlakət hadisələrinə görə sığorta ödənişlərinin verilməsi istiqamətində şəffaflığın təmin olunması məqsədilə, qısaldılmış adı TARSİM olan “Tarım Siqortalan Havuzu”, yaxud “Kənd təsərrüfatı məhsullarının sığortası Fondu” yaradılmışdır. Bu Fondun əsas gəlirləri – sığorta təşkilatları tərəfindən bağlanan sığorta müqavilələrinə görə Fonda ödənilən sığorta haqları, hesablanmış sığorta haqlarında dövlətin payı, daxil olmuş sığorta haqlarının dövriyyəsindən əldə edilən gəlirlər, təkrar sığorta müqavilələrinə görə alınan komisyon mükafatları, zərurət yarandığı vaxt alınan kreditlər, büdcədən daxil olan əlavə pul vəsaitləri və s.dən ibarətdir. Bu Fondun gəlirləri isə bütün növ vergi və rüsumlardan azaddır.

Məlumdurki, kənd təsərrüfatı digər sektorlardan fərqli olaraq risqə meyilliliyin yüksək həddə olduğu bir sahədir. Bu baxımdan yerli və xarici sərmayədarlar bu sahəyə daha az investisiya yatırır. Qənaətimizə görə sahə

üçün xarakterik olan bu vəziyyətin aradan qaldırılması üçün sığorta sisteminin funksional strukturunun təkmilləşdirilməsinə ehtiyac vardır.

İşin sonunda tədqiq edilən problem üzrə elmi cəhətdən əsaslandırılmış təkliflər işlənib hazırlanmışdır.

Dissertasiya işinin əsas müddəaları aşağıda dərc olunmuş elmi məqalə və tezislərdə öz əksini tapmışdır:

1. Azərbaycanda ərzaq bazarının formalaşdırılması yolları. AzETKTİ və Tİ, Akademik Əhməd Mahmudovun 75 illiyinə həsr olunmuş elmi-praktiki seminarın materialları.Bakı, 1998, səh.108-109

2. Bazar münasibətləri şəraitində tərəvəz məhsulları istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsi ehtiyatları. AzETKTİ və Tİ, Aqrar sənaye kompleksində islahatların sürətləndirilməsi: təcrübə, problemlər (elmi-praktiki seminarın materialları). Bakı, 1999, səh.80-81.

3. Üzüm istehsalı emalının ərazi üzrə təşkilinin təkmilləşdirilməsi. AzKTA-nın Elmi əsərlər toplusu.Gəncə, "AKTA" ,1999, səh.120-123

4. Yeni təsərrüfatçılıq formalarının əhalinin həyat səviyyəsinə təsiri. AzKTA-nın Elmi əsərlər toplusu.Gəncə, "AKTA" ,1999, səh.152 -153

5. Aqrar sənaye kompleksinin iqtisadi mexanizminin təkmilləşdirilməsində dövlətin rolu. AzKTA-nın Elmi əsərlər toplusu.Gəncə, "AKTA", 2004, səh.98-100

6. ASK-nın sferaları arasındakı iqtisadi əlaqələrin səmərəliliyi. "Azərbaycan Aqrar Elm" J., №1-3(201) Bakı, 2004, səh.310-311

7. Aqrar Sənaye Kompleksinin ölkənin aqrar bazarının formalaşmasında rolu. "Azərbaycan Aqrar Elm" J., №1-3(221) Bakı,2007,səh.293-294

8. Ölkədə aqrar sahənin formalaşdırılmasında qiymət amilinin rolu.AzETKTİ və Tİ-nin Elmi əsərləri. Bakı, 2007, №2,səh.194-196

9. Совершенствование экономического механизма хозяйствования в АПК, Известия аграрной науки. 0131 Грузия ,2011.Стр.117-119

10. Aqrar sənayenin dövlət tənzimlənməsinin əsas istiqamətləri. "Azərbaycan Aqrar Elm" J., №4 (221) Bakı, 2012, səh.151-153

11. Kredit siteminə keçidin problemləri. Beynəlxalq simpozium, Gəncə, 2012, səh.140-141

12.Ərzaq təminatının yaxşılaşdırılmasında aqrar emal sənayesinin rolu. Azərbaycan Elmı-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun elmi əsərləri. Bakı, 2013, №1, səh.79-82

13. Роль совершенствования стрфховых отношений в развитии аграрной отросли, Москва, 2013, аграрная наука, ст.7-9

14.Направления совершенствования механизма регулирования аграрного рынка. Вестник науки КАТУ им. С. Сейфуллина, №4, 2013 г.



Резюме

Насибова Халса Ибрагим кызы

**Совершенствование экономического механизма развития производства в аграрной сфере**

Диссертационная работа состоит из введения, трех глав, выводов и предложений, списка использованной литературы.

Первая глава диссертации называется «Теоретико-методологические основы формирования рыночных отношений в аграрной отрасли». В этом разделе рассмотрены экономическое содержание формирования рыночных отношений в аграрной отрасли, сущность механизма регулирования экономическими средствами аграрной отрасли и необходимость его совершенствования, роль государственного регулирования в равитии аграрной отрасли.

Во второй главе диссертации под названием «Современное состояние формирования и тенденции развития агарной отрасли» проанализированы современное состояние и динамика аграрной отрасли, экономические реформы в аграрной отрасли и их первые социально-экономические результаты, современное состояние экономического механизма государственного регулирования аграрной отрасли.

В третьей главе диссертационной работы – «Приоритетные направления совершенствования экономического механизма развития аграрной отрасли» - рассматриваются вопросы совершенствования денежно-кредитной политики, бюджетной и налоговой системы, страховых отношений.

В конце диссертационной работы разработаны научно обоснованные предложения по исследуемой проблеме.

SUMMARY

Nasibova Khalsa Ibrahim

**Improvement of the economic mechanism of the development of production in the agricultural sector**

The dissertation work consists of introduction, 3 paragraphs, conclusion and suggestions, list of used literature.

The first paragraph of dissertation named “Theoretic-methodological basis of market relations formulation in agrarian sector ”. In this paragraph we looked through economic contest of market relations formulation in agrarian field, sense of mechanism of economic means regulation in agrarian sector and necessity of their improvement, the government role in regulation of agrarian sector development .

In the second paragraph of dissertation, which named “Modern situation of formulation and tendencies of agrarian sector development ”, are analyzed modern situation and dynamic of agrarian sector, economic reforms in agrarian sector and their first socio-economic consequences, current place of economic mechanism of government regulation in agrarian sector.

In the third paragraph of dissertation work, which is about “Priority directions of improvement of economic mechanism in agrarian sector development ”, are commented questions of improvement of money-credit policy, budget and tax system, insurance relations.

In the end of dissertation, are proposed formulated suggestions relating with the investigated problem.



Kağız formatı (210x297) ¼
Kağız №1, uçot cap vərəqi 1,0 ç.v.
sifariş № 322, tiraj 100

Azərbaycan Dövlət Aqrar Universitetinin mətbəəsi

Rezoqrafiya üsulu ilə cap olunmuşdur
Gəncə şəhəri, Ozan küçəsi, 102

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА АЗЕРБАЙ-ДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ АГРАРНЫЙ УНИВЕРСИТЕТ**

На правах рукописи

Насибова Халса Ибрагим кызы

# Совершенствование экономического механизма развития производства в аграрной сфере

**5312.01 – «Экономика отрасли»**

**АВТОРЕФЕРАТ**

диссертации на соискание научной степени
доктора философии по экономики

**Гянджа – 2013**